## Təbrik edirik

# On üçüncü kitabın müəllifi

İstedad hər kəsə qismət olmur. İstedad tək-tək insanlara Ulu Tanrı tərəfindən verilən vergidir. Tanrının istedad vergisindən el arasında sayılıb-seçilən ziyalı Emin Baratoğluna da pay düşüb. İki birliyin—Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü Emin müəllim mübariz və maraqlı bir həyat yolunun yolçusudur. Özünü tanıyandan üzü bəri, arıçılıqla, bağçılıqla, tərəvəzçiliklə məşğul olmaqla yanaşı, ədəbiyyat həvəskarıdır.




Emin müəllim qədim tarixə malik Bum qəsəbəsində kolxozçu ailəsində dünyaya göz açıb. Bu ailədə yaxşı tərbiyə alan Emin müəllim doğma torpağın, vətənin, millətin və eyni zamanda təbiətin vurğunudur. Əli qələm tutandan bəri yazdığı şeirlərdə Qəbələ təbiətinin əzəmətli dağları, durnagözlü bulaqları, səfalı yaylaqları, barlı-bəhrəli meşəlikləri öz poetik əksini tapıb. Şair və yazıçı kimi tanınan Emin müəllim on üç kitabın müəllifidir. Onun qələmə aldığı toplularda Qəbələnin qədim tarixi, xalqın adət-ənənənələri, milli-mənəvi dəyərləri, elm, mədəniyyət və incəsənət sahələrində tanınmış böyük şəxsiyyətləri, o dövrün insanlarının həyat tərzi barədə inandırıcı dəlillərlə oxucuya geniş və hərtərəfli məlumat verilir.

Emin müəllimin bu yaxınlarda «Elm ocağı—ana qucağı» kitabı işıq üzü görüb. İstedadlı qələm sahibi Emin Baratoğlunun zəngin və geniş faktiki dəlillər əsasında qələmə aldığı bu kitab olduqca maraqlı və diqqətəlayiq bir topludur. Kitabı oxuduqca sadə və geniş oxucu dilində yazıldığının şahidi olursan. Müəllifin 13-cü kitabı olan bu toplu doğulduğu Bum qəsəbə İ. Umarov adına ümumi orta məktəbin ibtidai məktəbdən 8 illik məktəbə çevrilməsinin 40 illiyinə həsr olunur. Emin müəllim bu toplunu kimdənsə yarımaq məqsədi ilə qələmə almamışdı. O, bu məktəbin tarixini araşdırmaq üçün qapı-qapı ünvanlar axtarıb və burada vaxtı ilə işləmiş müəllimlər və məktəbdə əlifbanı öyrənmiş məzunlar haqqında zəngin və maraqlı məlumatlar toplamışdır. 200 tirajla «Ecoprint» nəşriyyatı tərəfindən çap olunmuş, 206 səhifəlik bu kitab olduqca oxunaqlı, diqqəti cəlb edən və müasir oxucu tələbinə cavab verən yüksək səviyyəli, qiymətli bir stolüstü əsərdir.

Emin müəllim, mən də sonda bir dostun kimi sizə bitməz-tükənməz ilham, «çernili» qurumayan qələm, sağlam və uzun ömür arzulayıram. Ancaq bir şərtlə: bundan sonra da yeni-yeni dəyərli əsərlərin ilə bizi sevindirəsiniz. Sizi dağlar diyarı bu qoca Qəbələmizin tarixində şair-yazıçı Emin müəllim kimi tanıyaq!

**Aslan CƏLİLOV.**

# Müdrik sözlər toplusu xəzinəsindən

✦Ən çətin iş həyatı yaşamağı bacarmaqdır.

✦Ən şirin dad, düz sözün acılığındadır.

✦Qazan dedi ki, mənim dibim qızıldır. Çömçə də dedi ki, gəzib gəlmişəm.

✦Qəlbində işıqlı səhər yarada bilmirsənsə, üzünə açılan sabah nəyinə lazımdır?

✦Abır-həyadan yaraşıqlı və qiymətli geyim yoxdur.

✦Xam xəyal fikirlərin qulu olunca, sağlam düşüncələrin nökəri ol.

✦Dəryanın dibinə baş vurmasan, sirrini öyrənə bilməzsən.

✦Dön geriyə bax, gör haradan gəlib haraya gedirsən.

✦Baxa-baxa gedənlər itirirlər, görə-görə gələnlər isə tapırlar.

✦Gözü gülənin ürəyi qəmlidir. Üzü gülməyənin isə ürəyi qanlıdır.

✦Yoxluğa getmə, itərsən, çoxluğa getmə, batarsan, varlığa getsən yaşarsan.

✦Zəmanənin adamı olma, ədalətin adamı ol.

✦Paxıllar və ünsiyyət qurmağı bacarmayanlar dünyanın ən rəzil, ən kasıb insanlarıdır.

✦Şirin dilin yoxdursa, halallığı nə ilə alacaqsan?

✦Həyat xalqına yaşayanlar üçün zindandır, yaşaya bilməyənlər üçün isə cəhənnəmdir.

✦Qanana söz qiymətdir, qanmayana isə heç qamçı da deyil.

✦Etibar və səbr hər şeyə qadirdir.

**Teymur RƏHMANOV,**
**Tüntül kəndi.**

*Qəzetimizin 24, 30 iyun və 11 iyul saylarında mətn üzrə müəllifin familiyası Əhmədov deyil, Rəhmanov oxunmalıdır.*

## Dərman bitkiləri

# Bağayarpağı

Enli, yaşıl yarpaqlı çoxillik ot bitkisidir. Qonur rəngli xırda çiçəkləri sünbül şəklində bitkinin yuxarı hissəsində yerləşir. May-iyun aylarında çiçək açır, avqust-sentyabr aylarına qədər bunun çiçəklənməsi davam edir. Ən çox yayılmış ot bitkilərindən biri olub, dünyanın çox yerində geniş yayılmışdır.

X əsrin axırlarında xalq təbabətində Ərəbistan və İran həkimləri bağayarpağının müalicəvi əhəmiyyətə malik olmasını öyrənmiş və bir çox xəstəlikləri müalicə etmək üçün onun yarpaq və toxum hissəsindən istifadə etmişlər.

Azərbaycanda bağayarpağı bitkisinin 14 növünə təsadüf edilir. Bağayarpağı bitkisinin tərkibində bir çox müalicəvi əhəmiyyətə malik olan dərman maddələri aşkar edilmişdir. Karotin, S vitamini, kalium, kalsium duzları ilə olduqca zəngindir.

Elmi-təbabətdə bağayarpağı bitkisinin yarpaq və toxum hissəsindən qəbizlikdə zəif işlətmə dərmanı kimi, mədə-bağırsaq xəstəliklərinin müalicəsində, öskürəkdə, göy öskürəkdə istifadə olunur.

Bağayarpağı bitkisinin yaşıl yarpaqlarının dəri yaralarını (çiban, kəsik və irinli yaraları) tez sağaldıcı xassəsi xalq təbabətində çoxdan məlumdur. Bu məqsədlə bağayarpağı bitkisinin yarpağını qopardıb yaraların üstünə qoyaraq bağlamaq kifayətdir.

# «Qəbələ» qəzeti redaksiyasına

Azərbaycan Milli Mətbuatının yaranmasından artıq 141 il ötür. Azərbaycanda Millli Mətbuat Günü iyulun 22 -də, 141 il əvvəl Həsən bəy Zərdabi tərəfindən ilk çap nəşri - "Əkinçi" qəzetinin buraxıldığı gündə qeyd edilir. Bütün Qafqazda əks-səda doğuran «Əkinçi» qəzeti 1875-1877-ci illər ərzində azərbaycan dilində nəşr olunmağa başlamış və ictimai maarifçiliyi hədəfləmişdir. Cəmi 56 sayı işıq üzü görən bu qəzetin Azərbaycan mətbuatının formalaşmasında müstəsna əhəmiyyəti olduğu danılmazdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Jurnalist əməyi qeyri-adi, olduqca zəhmətli, çox səylər göstərilməsini, hətta cəsurluq, hünər, fədakarlıq, öz peşəsinə vurğunluq tələb edən əməkdir" kəlamı milli mətbuat nümayəndələrinin əməyinə verilən yüksək qiymətin bariz nümunəsidir.

«Qəbələ» qəzeti də Azərbaycan mətbuatının bir qolu olaraq rayonun sosial-iqtisadi inkişafını, yenilikləri müntəzəm olaraq öz səhifələrinlə işıqlandırır.

Qəbələ rayon Heydər Əliyev Mərkəzi olaraq biz də öz kollektivimiz adından "Qəbələ" qəzetinin redaksiya heyətini və bütün mətbuat işçilərini peşə bayramları münasibəti ilə təbrik edir, şərəfli işlərində müvəffəqiyyət arzulayır və qəzetin səhifələrində məqalələrimizi işıqlandırdıqlarına görə onlara təşəkkür edirik. 20 ildən bəri işğal olunmuş torpaqlarımızın tezliklə azad olunması xəbərini bu qəzetin səhifələrində görməyi arzulayırıq.

**HEYDƏR ƏLİYEV MƏRKƏZİ.**


## «Qəbələ» qəzetinə

*2016-cı ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.*

**Yarımillik abunə qiyməti 15 manatdır.**

Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.


## ELANLAR

Daşınmaz Əmlakın Dövlət Restri Qəbələ Ərazi İdarəsi tərəfindən 16 yanvar 2008-ci il tarixdə 405013000737 reyestr nömrəsi ilə qeydiyyat № 190800160) **Müzəffərova Gülşən Arif qızına** verilmiş seriya MN, 0005711 №-li **çıxarış** itdiyi üçün etibarsız sayılır.

Hüquqların Dövlət Qeydiyyatı Haqqında Daşınmaş Əmlakın Dövlət Reyestri Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 26 iyul 2006-cı il tarixdə **Əhmədova Şaiqə Səhrab qızının** adına verilmiş seriya MN 0000299 nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Emin Baratoğlu, Əhəd Kərimxanov, Eldar Quliyev, Dursun Nəsibov, Rasim Yaqubov, Mehrəli Mehrəliyev və Əlövsət Aləmmədov ailə üzvləri ilə birlikdə

**CAVAN BƏKİROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.


*Redaktor O. Ə. Məmmədov.*

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi: A. C. Cəlilov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 1650.
Oxucu məktubları geri qaytarılmır.